TÜRKİYƏ CÜMHURİYYƏTİ - 100



UOT 94

HÜSEYİN ALTINALAN
TC Azərbaycandakı səfirliyinin mətbuat müşaviri,
Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin qiyabi doktorantı
TarixVeOnunProblemleri@gmail.com

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN ARASINDA İNFORMASİYA MÜHARİBƏSİ: AZƏRBAYCANDA MEDİANIN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

1988-ci ildə Ermənistan tərəfinin Azərbaycanın tarixi torpaqlarına açıq ərazi iddiaları və etnik təxribatları ilə başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Ermənistanın Azərbaycana hərbi hücumu ilə nəticələndi. Sovet İttifaqı rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR-in rəhbərliyi və xaricdəki erməni diasporu 1980-ci illərin əvvəllərindən SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək Azərbaycan SSR-in tərkibində 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV-nin) qopardılaraq Ermənistan SSR-ə birləşdirilməsi üçün məqsədyönlü hərəkətə keçdilər. 1991-ci ildə Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) dağılmasından sonra Ermənistanın Dağlıq Qarabağa iddia etməsi ilə diplomatik yollarla həlli mümkün olmayan problem ortaya çıxdı. Mübahisələr münaqişələrə, münaqişələr isə müharibələrə çevrildi. Ermənilərin bölgədə törətdikləri qırğınlardan sonra bir milyondan çox Azərbaycan türkü öz evlərini və yurdlarını tərk etmək məcburiyyətində qaldı. Beynəlxalq səylər nəticəsində atəşkəslə başa çatan 1-ci Qarabağ müharibəsi ilə Ermənistan Dağlıq Qarabağla yanaşı, ətrafdakı 7 rayonu da işğal etdi. Ermənilər bu müddət ərzində media vasitəsilə törətdikləri qırğınları gizlətməklə yanaşı, Azərbaycanı öz xalqını qətlə yetirməkdə ittiham etdilər, işğalı qanuniləşdirmək üçün də hər cür üsula əl atırdılar. Bu dövrdə Azərbaycanda media gücünün olmamasından istifadə edərək öz tezis və "həqiqətlərini" beynəlxalq ictimaiyyətə çatdıran ermənilər hərbi-siyasi sahədə olduğu kimi informasiya cəbhəsində də uğur qazandılar. Lakin 2020-ci ildə Azərbaycanın qələbəsi ilə başa çatan Vətən Müharibəsində Türkiyənin də verdiyi media dəstəyi ilə hərbi cinayətlərini gizlədə bilmədilər. Bu araşdırmada Birinci Qarabağ müharibəsində ermənipərəst medianın münasibəti və mövqeyi, həm də Azərbaycanın imkanları müzakirə olunacaq. Bundan əlavə, Vətən müharibəsi zamanı Ermənistanın dezinformasiya səyləri və nəticələri nümunələrlə izah ediləcək.

Açar sözlər: Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, informasiya müharibəsi, Heydər Əliyev, sosial media, I Qarabağ müharibəsi, II Qarabağ mübaribəsi.

Giriş. Qarabağ müharibəsi 1991-ci ildə SSRİ-nin dağılmasından sonra, ermənilərin bölgəyə iddiaları artdıqdan və qırğınlara başladıqdan sonra baş verdi. Dağlıq Qarabağın işğalı Ermənistanı qane etmədi, bundan əlavə Qarabağda 7 rayonu da işğal etdilər. Bu müddət ərzində ermənilər bölgədə hərbi cinayətlər, xüsusilə Xocalı soyqırımı törədiblər. Bununla belə, dünya mediası israrla Azərbaycan ərazisinin 20 faizini işğal edən Ermənistanın vəhşiliyinə göz yummağa çalışırdı. Digər tərəfdən, siyasi və iqtisadi təlatümlərlə mübarizə aparan Azərbaycanın o zaman hadisələri dünyaya çatdıracaq media orqanları yox idi. Beynəlxalq media orqanları Ermənistan hakimiyyətinin və ya xalqının iddialarını, ittihamlarını, yalanlarını və hekayələrini sorğu-sual etmədən dərc edərkən, Azərbaycanla bağlı faktlara gözlərini, qulaqlarını yumub, məhəl qoymurlar. Bundan əlavə, beynəlxalq media qurumları

həm də işğalı qanuniləşdirmək üçün işğal olunmuş torpaqların ermənilərə məxsus olduğunu sübut etməyə çalışır, xəbərlər, təhlillər, müsahibələr verirdi.

Xocalı Soyqırımı qurbanlarının cəsədlərini görən ilk xarici jurnalist kimi tanınan, Qarabağ müharibəsinin hər mərhələsinin şahidi olduğu bilinən Tomas Qoltz "Azərbaycan gündəliyi" kitabında qeyd edir ki, Bərdə və Tərtərdə baş verənlərdən heç kimin xəbəri yoxdur, lakin Ağdama çatanda qışqıraraq ağlayan yüzlərlə Xocalı sakinləriylə qarşılaşdıqlarını, onların ermənilər tərəfindən öldürülən qohum və yaxınlarının adlarını sayıqladıqlarını, sonra onu məscidin yanındakı morqa gətirdiklərini və həmin gecə qətliamı yaşayanlardan eşitdiyini bildirərək sözlərinə belə davam edir:

"Bir gecədə min ölü? Bu qeyri-mümkün səslənirdi. Amma insanların dediklərini müqayisə etdikdə, qırğının miqyası ilə bağlı iddialar çox doğru görünməyə başladı. Reuters-dən Elif Kaban məəttəl qalıb. Həyat yoldaşım Hicran iflic olmuşdu. Fotoqraf Oleq Litvin katatonik vəziyyətdə idi..." (1, s.177-178).

Sıfır metrdən gözündən güllə yarası alan gənc baytar həkimi və dərisi soyulmuş cəsədləri gördüyünü deyən Tomas Qoltz bildirir ki, qətliam xəbərini BBC-nin Moskva müxbirinə göndərərkən o buna inana bilmədi və "Yəni, Qarabağda bir hücumda son 4 ildə öldürüldüyünü elan etdiyimizdən daha çox insan həlak olub? Öldüyünü iddia edirsən? Bu qeyri-mümkündür", deyə o əlavə edib.

BBC müxbirinin Reuters xəbər agentliyində qətliamla bağlı bir xəbər də olmamasına diqqət çəkdiyini, Reuters müxbiri Elif Kabanın portativ teleksdən xəbərlər verilməsinə rəğmən agentliklərdə heç bir xəbərin olmadığını vurğulayan Goltz: ""BBC heç bir iddia olmadan tam üç gün susdu" dedi və reaksiyasını ifadələri ilə dilə gətirdi. 1-ci Qarabağ döyüşündə medianın vəziyyəti ilə bağlı sual ünvanladığımız məşhur azərbaycanlı müharibə müxbiri Reza Deqati də göndərdiyi səsli mesajda Qərb mediasının susqunluğunun şahidi olduğunu bildirir və bunları vurğulayır:

"Mən Xocalının şahidi olmuşam. Mən o gün orada deyildim. Bir neçə gündən sonra ora getdim, oradakı ölüləri, meyitləri çəkdim. Yaxınlarını axtaran sağ qalanları, anaları, ataları, bacıları çəkdim. Sonra bu görüntüləri Fransanın bütün qəzetlərinə göndərdim, amma heç biri onların dünyaya nümayiş olunmasını istəmədi. O zaman bütün agentliklərlə, Paris Match, Liberation, Time Magazine... Hamısına bu fotolardan istifadə etməyi təklif edirdim. Bunların hamısı bizim başımıza gəirilib. Xocalıdan başqa mən 1 ay müharibəni də çəkmişdim. Mən Məcburi qaçqınları da çəkmişdim, amma heç kim onların bu baxışla, bu bucaqdan görünməsini istəmirdi" (2).

Qoltz daha sonra Washington Post-un Moskva ofisinə çatanda və ölənlərin sayının 477 olduğunu bildirdikdə ona "bütün cəsədləri görüb-görmədiyi, bu rəqəmi haradan aldığı" ilə bağlı israrlı suallar verilib və "Xocalı xəbərini, fevralın 27-də Washington Post-da dünya nəşrinin daxili səhifələrindən birində xüsusi xəbərlə dünyaya ilk olaraq mən elan etmişəm" deyib" (1, s.180-181). Bu vəziyyətdən ruhlanan ermənilər orada cəmi 200 nəfərin öldüyünü və həlak olanların əksəriyyətinin Azərbaycan əsgərlərinin əks-hücumunda həyatını itirən mülki vətəndaşlar olduğunu iddia edirdilər.

Eyni iddianı Ermənistan Xarici İşlər Nazirliyi də müdafiə edib. Nazirlik bu iddialarını Human Rights Watch Helsinki Hesabatına əsaslanaraq iddia edib. Təşkilat Ermənistan Xarici İşlər Nazirliyinə reaksiya verərək, Human Rights Watch-nin azərbaycanlıların öz xalqını öldürdüyünə dair hesabat olduğunu iddia edərək, onlardan bu bəyanatları silməyi və üzr istəmələrini tələb edib.

Müharibə və qırğın şahidləri Reza Deqati və Tomas Qoltsun vurğuladığı kimi, dünya mediası 1-ci Qarabağ savaşı zamanı ermənilərin törətdikləri hərbi cinayətlərə və onların beynəlxalq hüquq normalarını pozan təcrübələrinə biganə qaldı.

Azərbaycanda isə hadisələri dünyaya çatdıracaq media orqanları yox idi, ölkə daxilində aparılan yayımlar beynəlxalq ictimai rəydə təsirli deyildi. Həmin illərdə bir dildə yayımlanan Anadolu Agentliyi və TRT, Türkiyə mediası aktiv mövqedə deyildi. Ermənilərin törətdikləri hərbi cinayətlərdən, işğaldan danışsalar da, dünyaya səs sala bilmədilər.

Bu dövrdə Azərbaycan mətbuatında ciddi dəyişikliklər baş verirdi. Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra hər bir sahədə olduğu kimi, mətbuata da xüsusi diqqət və qayğı göstərilməyə başlandı. 1998-ci il avqustun 6-da Ümummilli lider Heydər Əliyev Azərbaycan mətbuatına dövlət senzurasının ləğv edilməsi haqqında fərman imzaladı. Ümummilli lider Heydər Əliyev tərəfindən mətbuatda senzuranın ləğvi Azərbaycanda ifadə və mətbuat azadlığının əsasını qoydu. Bundan öncəki zamanda AXC-"Müsavat" ha-

kimiyyətinin 1992-ci ildə yaratdığı hərbi senzura söz azadlığına qarşı repressiya idi. Bəhs edilən dövrdə çətinliklə nəşr edilən qəzetlərə yaradılan bürokratik əngəllər əsl həqiqətin xalqa çatdırılmasına mane olurdu. AXC-"Müsavat" hakimiyyətinin jurnalistikaya, jurnalistlərə münasibəti bu cütlüyün təmsilçilərinin hakimiyyətdə təmsil olunma səviyyələri ilə adekvat idi. Belə ki, məmurlar istənilən jurnalist haqqında istədiyi qərarı verir, söz azadlığı, fikir plüralizmi kimi mövhumlar Azərbaycana yad meyarlara çevrilirdi. İstər Həsən bəy Zərdabi dövründən miras qalan, istərsə də Ümummilli liderimiz Heydər Əliyev tərəfindən formalaşdırılan azad və milli mətbuat ənənələri kobud şəkildə dağıdılırdı. Xalqın gərgin psixoloji durumundan istifadə edərək şantaj, hədə-qorxu yolu ilə pul qazanmaq hərisliyi bəzi məqamlarda jurnalist adına ləkə vurulması ilə də nəticələnirdi.

Ümummilli lider Heydər Əliyevin senzuranın ləğvi haqqında sərəncamı Azərbaycanın demokratik cəmiyyət kimi uzunmüddətli inkişafına uyğun idi. Ümummilli liderimiz Heydər Əliyevin mətbuatın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər daimi xarakter almışdır. 2000-ci ilin martında Ulu Öndərin sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlər proqramı" təsdiq edilmiş, Mətbuat və İnformasiya Nazirliyi ləğv edilmiş və Milli Mətbuat, Televiziya, Radio və İnternet Şurası yaradıldı.

Sevindirici haldır ki, ölkəmizdə söz və məlumat azadlığının təmin edilməsi istiqamətində Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Daha doğrusu, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı tədbirlər sırasında söz və məlumat azadlığının daha da genişləndirilməsi istiqamətində atılan addımlar, mətbuatın inkişafı istiqamətində həyata keçirilən siyasət xüsusi qeyd olunmağa layiqdir (3).

Medianın və mətbuatın inkişafı istiqamətində atılan bütün bu addımlar 27 sentyabr 2020-ci il - 10 noyabr 2020-ci il tarixləri arasında baş verən 44 günlük İkinci Qarabağ döyüşünə qədər bütün şərtləri Azərbaycanın xeyrinə dəyişdi. Azərbaycanın əks-hücumunda verdiyi itkiləri Ermənistan mülki əhali itkisi kimi qələmə verərək dezinformasiyaya cəhd etdi. Müxtəlif sahələrdə güclərini birləşdirən Türkiyə və Azərbaycan bu hücumdan sonra media sahəsində də əməkdaşlığa başladılar. 7 sentyabr 2020-ci ildə İstanbulda Dolmabahçe sarayında Vətən Müharibəsi öncəsi keçirilən toplantıda ortaq "Media Platforması"nın yaradılması ilə bağlı razılıq əldə olundu (4).

Razılaşma ilə bağlı açıqlama verən Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin sədri Fahrettin Altun Türkiyə ilə Azərbaycan arasında dəqiq məlumatların yerli və beynəlxalq ictimaiyyətə sürətli şəkildə çatdırılmasından tutmuş informasiya çirkliliyi, saxta xəbərlər və dezinformasiyalar ilə mübarizəyə qədər bir çox sahədə ortaq işlər aparacaqlarını vurğulayaraq: "Bu nöqtədə Türkiyə-Azərbaycan Media Platforması yaratmaq üçün razılığa gəldik" deyə bildirdi.

"Biz bu platforma vasitəsilə iki ölkə mediasının inteqrasiyalı fəaliyyətini, ictimaiyyətin məlumatlandırılmasının səmərəli fəaliyyətini, xarici aləmdən gələn qara təbliğatla, xüsusilə də sosial şəbəkələrdə yaranan şayiələrlə mübarizədə ortaq strategiyaların yaradılmasını qiymətləndirdik" dedi (yenə orada).

2020-ci il sentyabrın 27-də ermənilərin hücumu başlayanda hələ anlaşma memorandumu imzalanmamışdı. Lakin Türkiyə Cümhuriyyəti Cumhurbaşkanlığı Kommunikasiyalar Müdirliyinin koordinasiyası ilə Türkiyə mediasının və Türkiyədən akkreditə olunmuş media qurumlarının rəhbərləri və müxbirləri Bakıya gəldilər.

Hərbi, siyasi və diplomatik sahədə mübarizələrin getdiyi 2-ci Qarabağ müharibəsi informasiya cəbhəsində də təbliğat müharibələrinə səhnə olub. Media və sosial mediada gərgin mübarizə gedirdi.

Hərbi sahədə ağır zərbə alan Ermənistan keçmişdə olduğu kimi diplomatik sahədə də dəstək ala bilmədi. Bu prosesdə Ermənistan Türkiyə və Azərbaycana qarşı güclü qara təbliğat strategiyası həyata keçirərək, öz insan haqlarını və qanun pozuntularını sanki Azərbaycan törətmiş kimi dünyaya əks etdirməyə çalışıb. Cəbhə xəttində olmayan dinc əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə edən ermənilər Azərbaycanı öz cinayətlərində ittiham etməklə yanaşı, onların hücumlarını da inkar etməyə çalışıblar (5, s.348).

Lakin Bakıdan cəbhə bölgəsinə gedən media mənsubları dinc əhaliyə edilən hücumları havadarlarının, xüsusən də ermənilərin inkar edə bilməyəcəyi şəkildə ifşa etdilər. Mülki qırğınların görüntüləri və istifadə edilən adi silahlar daxili və beynəlxalq ictimaiyyətə təqdim edildi.

Bundan başqa, Türkiyə və Azərbaycan mediası təbliğat üsullarına uymayıb, yalnız Azərbaycanın haqq işinin dünyaya elan edilməsinə yönəldi. Bu istiqamətdə o, BMT-nin də qəbul etdiyi Azərbaycan torpaqlarının 20 faizinin işğal altında olduğunu və Ermənistanın atəşkəsi pozmaqda davam etdiyini, nəhayət iyulun 12-də Tovuz şəhərinə hücumla yanaşı, atəşkəsi pozmaqda davam etdiyini bildirib. Biri briqada generalı olmaqla 12 əsgər şəhid olub, yaşayış məntəqələri ənənəvi silahlarla dağıdılıb, atışma kimi məsələləri gündəmə gətirib.

Türkiyədən akkreditə olunmuş xarici media orqanları da xüsusilə mülki şəxslərə qarşı hücumları ifşa edən nəşrlər dərc ediblər.

Onlardan biri, France 24-ün müxbiri Ketrin Norris-Trent 5 oktyabr 2020-ci il tarixində paylaşdığı tvitində Ermənistan ordusunun Bərdə şəhərində mülki əhalinin yaşadığı əraziyə hücumunu video ilə birlikdə paylaşıb. Ketrin Norris tvitter səhifəsində yazıb: "Azərbaycana növbəti raket hücumu, bu dəfə Qarabağ sərhədinin 20 kilometrliyində Bərdəyə edildi. Bölgəyə intensiv bombardmanlar davam edir" (6).

Ermənistan şəhərlərə və insanlara bomba atmaqda davam edirdi. 2020-ci il oktyabrın 17-də Gəncə və Mingəçevir şəhərlərinə raket zərbəsi endirib. Ermənistan da bu hücumları təkzib edib (7). Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan isə Tvitter hesabında açıqlama verərək hücumu Ermənistanın həyata keçirmədiyini iddia edib.

Stepanyan öz yazısında "Azərbaycanın hərbi-mülki rəhbərliyinin bəyanatlarına cavab: Ermənistan Respublikası ərazisindən və Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycana qarşı heç bir atəş açılmayıb" sözləri ilə hücumu təkzib etməyə çalışıb.

Stepanyan Ermənistanın Gəncə və Mingəçevir şəhərlərini hədəfə alan "Qrad" raketləri ilə bağlı Azərbaycan mətbuatında dərc olunan görüntüləri paylaşıb: "Ermənistanın "Qrad" raketlərinin uçuş məsafəsi 20 kilometrdir. Gəncə 40, Mingəçevir 50 kilometr məsafədədir". ifadələrini istifadə edib.

Ermənipərəst KİV-lər "Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərinə raket zərbələri endirilib. Azərbaycan hücumu Ermənistanın həyata keçirdiyini iddia edib, erməni tərəfi isə bu iddiaları təkzib edib. Bir təkzib də erməni təyyarəsinin vurulması iddiasına gəldi.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev öz Twitter hesabında Gəncə və Mingəçevirdə raket hücumlarının həyata keçirildiyini bildirib. Hacıyev bildirib ki, hücumu Ermənistan ordusu həyata keçirib.

Azərbaycan Prokurorluğu ermənilərin Gəncəyə hücumu nəticəsində həyatını itirən mülki şəxslərin sayının 12-yə yüksəldiyini açıqlayıb. Yaralıların sayının 40 olduğu açıqlanıb.

Sputnik Azərbaycan-ın müxbiri hücum nəticəsində dağılan tikililərin olduğunu və dağıntılar altında qalanların ola biləcəyini qeyd edib. Azərbaycan Ermənistana məxsus SU-25 döyüş təyyarəsini vurduğunu iddia edib. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı bəyanatda bildirilib ki, yerli vaxtla saat 11.11-də Ermənistan ordusuna məxsus SU-25 döyüş təyyarəsi Cəbrayıl rayonu istiqamətində havadan Azərbaycan əsgərlərinə hücum etməyə cəhd edib. Açıqlamada təyyarənin Azərbaycanın hava hücumundan müdafiə qüvvələri tərəfindən vurulduğu qeyd edilib. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan açıqlamanı təkzib edib.

Facebook'tan açıklama yapan Stepanyan, durumu 'başka bir yanlış bilgilendirme' olarak nitelendirdi." Şeklinde duyurdu. Türkiye medyası ise Ermenistan'ın yalanladığı 17 ekim gecesi çok sayıda binanın yıkıldığı saldırıdan birkaç dakika sonra yaşanan vahşeti olay yerinden tüm dünyaya duyurdu. En kazlardan cansız bedenler ve yaralılar çıkarılmasını canlı olarak aktardı.

"Facebook"da açıqlama verən Stepanyan vəziyyəti "daha bir dezinformasiya" kimi elan etdi. Türkiyə mediası isə Ermənistanın təkzib etdiyi oktyabrın 17-nə keçən gecə çoxlu binaları yerlə-yeksan edən hücumdan bir neçə dəqiqə sonra baş verən vəhşilikləri bütün dünyaya bəyan etdi və dağıntılar altından meyitlərin və yaralıların çıxarılmasını canlı olaraq bütün dünyaya bildirdi.

Dərhal hadisə yerinə gedən CNN Türk müxbiri Fulya Öztürk, "Bir qadını çıxardılar. Acı xəbər verim. Balaca bir körpə çıxdı. Cansız bədəninə toxundum. Balaca idi. Qan içindəydi. Əli əlimə dəydi. Çox dəhşətli idi. "Hər yeri qan içində idi" ifadələrindən sonra gözləri yaşla doldu (8).

Heç kimin inkar edə bilməyəcəyi şəkildə hazırlanan bu verilişlər Ermənistana siyasi dəstəyi də zəiflətdi. Ermənistana dost dövlətlər də artıq ona açıq şəkildə və keçmişdə olduğu kimi dəstək verməkdən çəkindilər.

Qərb mediası 1-ci Qarabağ savaşında olduğu kimi bu hücumları artıq diqqətdən kənarda qoya bilmədi. Lakin bəzi KİV-lər bu dəfə fərqli yayım strategiyası ilə çıxış edərək erməni qırğınlarını sanki Azərbaycan törədibmiş kimi göstərməyə çalışdılar.

Bu qara təbliğat o həddə çatıb ki, müharibə davam edərkən İrəvanda təşkil olunan bəzi nümayişlərdə 2017-ci il iyulun 4-də ermənilərin hücumu ilə həyatını itirən "Zəhra"nın şəkillərindən istifadə edilərək Azərbaycan "mülki vətəndaşları öldürməkdə" ittiham olunurdu. Öldürdükləri günahsız körpənin fotosu ilə dinc sakinləri öldürməkdə Azərbaycanı ittiham etmək çirkin təbliğatın ən acı nümunələrindən biridir.

Dezinformasiyada Ermənistana siyasi və hərbi dəstək verən ölkələrdən birincisi olan Fransa mediası da dezinformasiyada öncül rol oynayıb. AFP, France 24 və RFI kimi xəbər agentlikləri də Ermənistanın Bərdəyə hücumlarını əks etdirən kadrlardan istifadə edərək Azərbaycanın Xankəndində dinc sakinlərə hücumu barədə yalan iddialar irəli sürüblər.

Məsələn, Vətən müharibəsi zamanı Ermənistan ordusu Azərbaycanın Bərdə şəhərini 2 gün dalbadal raketlərlə vurub, hər iki hücumda dinc sakinlər həlak olub.

27 oktyabr 2020-ci ildə baş verən hücumda 5 nəfər ölüb, 13 nəfər yaralanıb. Oktyabrın 28-də baş verən hücumda biri Qızıl Aypara könüllüsü olmaqla 22 nəfər həyatını itirib, 60 nəfər yaralanıb.

Ermənistan hücumu onların həyata keçirmədiyini iddia edib, lakin qondarma Dağlıq Qarabağ Respublikası hücumları onların həyata keçirdiklərini, lakin mülki yaşayış məntəqələrini deyil, hərbi obyektləri hədəfə aldıqları iddiasını müdafiə edib.

Fransa mətbuatı isə ermənilərin Bərdəyə hücumunun görüntülərini dünyaya Azərbaycanın Xankəndinə hücumu kimi təqdim edib.

Lakin bu və buna bənzər fotoların gerçək hekayələri təqdim edildikdən sonra qara təbliğat əks effekt verdi. Türkiyə Cümhuriyyəti Kommunikasiyalar İdarəsi tərəfindən Azərbaycana gətirilən reportyorlar Azərbaycana qarşı dezinformasiya cəhdlərinin qarşısını almağa çalışaraq Ermənistanın törətdiyi hərbi cinayətləri ictimaiyyətlə bölüşdülər.

Nəticə. 1-ci Qarabağ döyüşündə olduğu kimi Ermənistan ilkin olaraq hərbi cinayətlərini inkar etməyə əl atdı və onun havadarları bunu qlobal media vasitəsilə gizlətməyə çalışdılar. Lakin bu cinayətlər Türkiyə mediası və Türkiyədə akkreditə olunmuş xarici media tərəfindən üzə çıxanda daha müqavimət göstərə bilmədilər. Onlar bunu qəbul etməsələr də, hücumu başqa adda olan ermənilərin işğalçı hökuməti öz üzərinə götürməli oldu. Vətən müharibəsində baş verən bu hadisələr göstərdi ki, güclü dövlət olmaq üçün güclü iqtisadiyyata, güclü orduya, güclü demoqrafik struktura və savadlı insanlara, güclü mediaya malik olmaq lazımdır. 1-ci Qarabağ döyüşündən fərqli olaraq, Azərbaycan Vətən Müharibəsində güclü media dəstəyi aldığı üçün Ermənistanın dezinformasiya cəhdi iflasa uğradı.

ƏDƏBİYYAT

1. Goltz Thomas, Azerbaycan Günlüğü, İstanbul, TEAS PRESS, 2018, 595 s.
2. Reza Deqati: Xocalıda baş verənləri dünyaya çatdırmaq mənim ömürlük vəzifəmdir / Xalq qəzei, 24.02.2023. - https://xalqqazeti.az/az/qan-yaddasi/121870-reza-deqati-xocalida-bas-verenleri [01.10.2023].
3. Perviz Sayadoğlu. Azərbaycanda Ümummilli liderimiz Heydər Əliyev tərəfindən senzuranın ləğv edilməsindən 16 il ötür / Yeni Azərbaycan, 06.08.2014. - https://yeniazerbaycan.com/Daxilisiayset_e17234_az.html [01.10.2023].
4. İletişim Başkanı Altun: Türkiye-Azerbaycan Medya Platformu oluşturmak üzere mutabakata vardık / Anadolu Ajansı, 07.09.2020. - https://www.aa.com.tr/tr/turkiye/iletisim-baskani-altun-turkiye-azerbaycan-medya-platformu-olusturmak-uzere-mutabakata-vardik/1965314 [01.10.2023].
5. Sema Özdaşlı, Karabağ, Dünü Bugünü Yarını, Selenge Yayınları, 2021, 517 s.
6. Catherine Norris Trent, 05.10.2020. - https://www.france24.com/en/catherine-norris-trent-0/7#pager [01.10.2023].

7. İki iddiaya Ermenistan'dan yalanlama / Etha,17 Ekim 2020. - http://www.etha15.com/haberdetay/iki-iddiaya-ermenistandan-yalanlama-130344 [01.10.2023].
8. Son dakika haberi: CNN Türk muhabirinin Gence'de zor anları! 'Cansız bedenine dokundum / Hürriyet, 17 Ekim 2020. - https://www.hurriyet.com.tr/dunya/son-dakika-haberi-cnn-turk-muhabirinin-gencede-zor-anlari-cansiz-bedenine-dokundum-41638518 [01.10.2023].

ХУСЕЙН АЛТЫНАЛАН
Пресс-Атташе посольства Турции в Азербайджане,
Заочный докторант факультета журналистики
Бакинского государственного университета

ИНФОРМАЦИОННАЯ ВОЙНА МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И АРМЕНИЕЙ: РОЛЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ СМИ В АЗЕРБАЙДЖАНЕ

Армяно-азербайджанский нагорно-карабахский конфликт, начавшийся в 1988 году с открытых территориальных претензий и этнических провокаций армянской стороны на исторических землях Азербайджана, вылился в военное нападение Армении на Азербайджан. Армяне, представленные в Советском Союзе, руководство Армянской ССР и армянской диаспоры за рубежом целенаправленно двигались к тому, чтобы разделить Нагорно-Карабахскую автономную область (НКАО), созданную в 1923 году в составе Азербайджанской ССР, и объединить ее с Армянской ССР. После распада Союза Советских Социалистических Республик (СССР) в 1991 году притязания Армении на Нагорный Карабах создали проблему, которую нельзя было решить дипломатическим путем. Споры превращались в конфликты, а конфликты превращались в войны. После массовых убийств, учиненных армянами в регионе, более миллиона азербайджанских тюрков были вынуждены покинуть свои дома и земли. В результате международных усилий, с Первой карабахской войной, которая закончилась прекращением огня, Армения оккупировала Нагорный Карабах и семь прилегающих районов. В этот период армяне не только скрыли через средства массовой информации совершенные ими массовые убийства, но и обвинили Азербайджан в убийстве собственного народа, и использовали все средства для легитимации оккупации. В этот период, пользуясь отсутствием в Азербайджане медийной власти, армяне донесли свои тезисы и «правды» до международного сообщества, и преуспели в информационном поле, а также в военно-политической сфере. Однако они не смогли скрыть свои военные преступления в Отечественной войне, завершившейся победой Азербайджана в 2020 году, при медийной поддержке Турции. В этом исследовании будет обсуждаться отношение и позиция проармянских СМИ в Первой карабахской войне, а также возможности Азербайджана. Кроме того, на примерах будут объяснены дезинформационные усилия и результаты Армении в годы Великой Отечественной войны.

Ключевые слова: Армяно-азербайджанский Нагорно-Карабахский конфликт, информационная война, Гейдар Алиев, социальная медиа, Первая Карабахская война, Вторая Карабахская война.

HUSSEIN ALTINALAN
Press advisor of the Embassy of the Republic of Turkey in Azerbaijan,
Doctoral student of the journalism faculty of Baku State University

INFORMATION WAR BETWEEN AZERBAIJAN AND ARMENIA: THE ROLE OF NATIONAL LEADER HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF MEDIA IN AZERBAIJAN

The Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, which began in 1988 with open territorial claims and ethnic provocations by the Armenian side in the historical lands of Azerbaijan, resulted in a military attack by Armenia on Azerbaijan. Armenians represented in the Soviet Union, the

leadership of the Armenian SSR and the Armenian Diaspora abroad purposefully moved to break up the Nagorno-Karabakh Autonomous Region (NKAO), established in 1923 as part of the Azerbaijani SSR, and unite it with the Armenian SSR. After the collapse of the Union of Soviet Socialist Republics (USSR) in 1991, Armenia's claim to Nagorno-Karabakh created a problem that could not be resolved diplomatically. Disputes turned into conflicts, and conflicts turned into wars. After the massacres committed by Armenians in the region, more than one million Azerbaijani Turks were forced to leave their homes and lands. As a result of international efforts, with the First Karabakh War, which ended in a ceasefire, Armenia occupied Nagorno-Karabakh and seven surrounding regions. During this period, the Armenians not only concealed the massacres they committed through the media, but also accused Azerbaijan of killing its own people, and used all means to legitimize the occupation. During this period, using the lack of media power in Azerbaijan, the Armenians conveyed their theses and "truths" to the international community, and succeeded in the information field, as well as in the military-political sphere. However, they could not hide their war crimes in the Patriotic War, which ended with the victory of Azerbaijan in 2020, with the media support of Turkey. This study will discuss the attitude and position of the pro-Armenian media in the First Karabakh War, as well as the opportunities of Azerbaijan. In addition, Armenia's disinformation efforts and results during the Great Patriotic War will be explained with examples.

Keywords: Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, information war, Heydar Aliyev, social media, First Karabakh War, Second Karabakh War.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 oktyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.
Redaksiya heyətinin qərarı ilə nəşr edilib.